# VI. "XOCALI ŞİKƏSTƏSİ"NİN YARALI SƏSİ

## Giriş əvəzi qeydlər

**1992-ci ilin 26 fevralında baş vermiş Xocalı hadisəsi Azərbaycan tarixinin yaddaşında heç vaxt örtülməyəcək bir yaradır. Zaman keçdikcə bu hadisə ağrı ilə xatırlanacaq və unudulması mümkün olmayacaq.**

**Azərbaycan tarixində qırğınlar, qətliamlar az olmayıb. Zaman-zaman işğal niyyəti ilə Azərbaycana soxulan qaniçənlər müqavimətlə qarşılaşanda yerli əhalini kütləvi şəkildə qətl etməklə qəzəblərini soyutmağa çalışmışlar. Şübhəsiz tarixdə baş verənlər nə qədər ağrılı olsa da, gələcəyi yaşamağın, daha təhlükəsiz yaşamağın dərsləri kimi öyrənilir. Ötən əsrin 80-ci illərinin sonunda Ermənistanda millətçi şovinistlər və tarixdə terrorçu, qisasçı bir partiya kimi (əslində terror dəstəsi kimi) formalaşmış daşnaqçılar Ermənistanda əsas mənbəyinə, söz sahibinə çevrildilər, real hakimiyyəti ələ keçirməklə türklərə qarşı düşmənçilik, kin və ədavət hisslərini açıq-aşkar büruzə verdilər. O vaxt onların imkanları olsaydı, nəinki Azərbaycanı, eləcə də bütün Türkiyəni darmadağın edərdilər, ancaq hələ ki...**

**Bəli, hələ ki, türklərə qarşı qisasçılıq niyyətlərini həyata keçirmək üçün məqam axtarırdılar. Tarixi şərait isə yetişməkdə idi. Sovet dövləti çökürdü. Dünyadakı və Rusiyadakı erməni lobbisi qüvvələri səfərbər ebib, Azərbaycanı hədəfə aldılar.**

**Müstəqilliyə can atan Azərbaycan da öz gücünü səfərbər etmək imkanında deyildi. Hakimiyyət uğrunda mübarizə sanki müdafiəni yaddan çıxarmışdı. Dünyanın tarixində Sonqmi, Xatın, Germiç... qətliamları sırasında Xocalı soyqırımı da belə bir tarixi şəraitdə erməni vandallarının qeyri-insani əməli kimi baş verdi.**

**30 ildən çoxdur ki, Xocalı faciəsi dünyanın müzakirəsinə verilib. Tarixin həqiqəti kimi Xocalı faciəsinin soyqırım olmasını təsdiq edən dövlətlər az deyil, tərəddüd edənlər də var. Şübhəsiz ermənipərəst qüvvələrin riyakarlığı da öz inadını göstərməkdədi. Xocalı faktdır, xronikada olanları kimsə dana bilməz.**

*Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi.*

*Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63 uşaq, 106 qadın, 70 qoca və qarı olmaqla - 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur. Bu hadisə Azərbaycanda və qardaş Türkiyədə "Xocalı qətliamı", "Xocalı soyqırımı" kimi anılır. Ermənistanda isə bu əməliyyat "Xocalı döyüşü", "Xocalı hadisəsi" terminləri ilə ifadə olunur. Qərb və dünya mətbuatı "Xocalı qətliamı" (ing. "Khojaly Massacre", fr. "Massacre de Khodjaly") terminindən istifadə etməyə üstünlük verir.*

Bu faktları araşdırmaq, təhlil etmək erməni faşizminin simasını açmaq, erməni vandallığını ifşa etmək tarixçilərin və siyasətçilərin işidir.

Ədəbiyyat, incəsənət, o cümlədən kino, teatr bu dəhşətli faciəni bədii obrazlarla dünyanın düşüncə mərkəzinə gətirməkdə davam edir. Hadisənin şahidlərindən tutmuş yeni nəsil yaradıcılara kimi hər kəs Xocalı faciəsinin bir tərəfinə işıq salır, onu obyektivə götürür. Hələ də tərəddüd edənlərin gözlərinin önündə canlandırır.

Bizim "Kredo" qəzetinin ilk sayı 1999-cu ilin 12 oktyabrında işıqlığa çıxıb. O vaxtdan bəri Xocalı faciəsi ilə bağlı saysız-hesabsız yazılar dərc eləmişik. Mən özüm də çoxlu publisist yazılar qələmə almışam və həmin yazılar qəzetdə dərc olunub. Xocalı faciəsinin ağrı daşıyıcısı olan "Qara bayram gəlir" adlı poema və şeirlərim yeni nəsil üçün mənəvi borcumun ifadəsi kimi yazılıb.

Əgər Xocalı faciəsini əks etdirən Xocalı qətliamına körpü tutan müəlliflərin yaratdıqlarının hamısını yazıya gətirmək mümkün olsaydı, təkcə elə siyahı bir kitaba çevrilərdi.

Burada məqsəd Moskvada yaşayıb-yaradan tanınmış nasir-publisist Ulduz Qasımın "Xocalı şikəstəsi" romanına münasibət bildirməkdir.

Xocalı faciəsi elə bir miqyasda olan hadisədir ki, onun hər günü, hər anı yazıya alınmalıdır. Yalnız bu bütövlük yazısı ilə Xocalı hadisəsinin miqyasını dünya ictimaiyyətinə heç olmasa, müəyyən dərəcədə çatdırmaq olar. Əlbəttə, bütöv çatdırmaq heç cür mümkün deyil.

Ulduz Qasımın nəsr yaradıcılığında (o, ədəbiyyata şeirlə gəlib, publisistik yazıları ilə tanınıb, ayrı-ayrı vaxtlarda esseləri ilə gündəmdə olub. Hekayələri Azərbaycan, Türkiyə və Rusiya mətbuatında müxtəlif vaxtlarda işıq üzü görüb) roman janrı xüsusi yer tutur. Onun «Qürbət zöhrəsi» əsərinin ədəbi təhlil müstəvisindəki yeri göstərdi ki, müəllifin gücü nəsr imkanları var. O, həyat hadisələrini çox böyük istedadla ümumiləşdirə bilir. Həyatı bütün mürəkkəblikləri ilə yazıya gətirmək imkanına malikdir.

Sənətkarın həyat bələdliyi, məlumat dolğunluğu ilə qələmə aldığı və müəyyən mənada bir-birini tamamlayan əsərləri var ki, sırasına görə ədəbi tənqid trilogiya adlandırır bu əsərləri: «Xocalı şikəstəsi», «Solmayan nərgiz», «Qarabağda qiyamət».

Əslinə qalsa, ümumiyyətlə, Ulduz Qasımın əsərlərinin hamısı - yaradıcılığı bütövlükdə bir həyatın xronikası təsirini bağışlayır. Amma konkret, ayrılıqda götürüldükdə trilogiya kimi təqdim olunan əsərlərin mahiyyəti, məzmunu nə qədər faciənə olsa da, bir xalqın özünün tarixi taleyi uğrunda mübarizəsinin bədii salnaməsi olduğunu inkar etmək olmaz.

Beləliklə, biz trilogiyanın ilk əsəri ilə yaxından tanış olmaq imkanı qazanırıq; bu, «Xocalı şikəstəsi» romanıdır. Əsərin mahiyyəti, müəllifin hadisələrə münasibəti, bütövlükdə hadisələrin özü canlı şəkildə kifayət qədər dolğunluğu və inandırıcılığı ilə görünür əsərdə.

Hər bir əsərin haqqında rəyçi münasibəti ilkindir. Çox vaxt bu rəyi (klassik ənənəyə uyğun olaraq) nəşriyyatlar imzasız təqdim edirdilər və əsər həmin rəy əsasında çap olunurdu. Nəşriyyat qeydləri də elə həmin rəylə kitabın önündə yer alırdı.

Mən deyə bilmərəm ki, «Xocalı şikəstəsi» romanına rəyi kim yazıb. Çünki bu haqda qeyd yoxdur, hər halda annotasiya var: *«Xocalı soyqırımı»nın, ümumiyyətlə, Qarabağda, Qərbi Azərbaycanda ermənilər tərəfindən aparılan sonuncu qətliamın başlanğıc tarixindən bizi üç onillik ayırır. Xatirələrdəki yaralı yaddaş hələ də insanlara əzab versə də, soydaşlarımız silah gücünə tərk etdikləri torpaqlara qayıtmaq ümidlərini bir an belə itirmirlər. Xüsusilə, Heydər Əliyev Fondu tərəfindən müdafiə olunan "Xocalıya ədalət!" harayı hər ilin fevral ayında yenidən dünyanı silkələyir, bəşəriyyəti haqqın yanında olmağa çağırır.*

*Ulduz Qasımın "Xocalı şikəstəsi" romanı da belə çağırışlardan biridir. Roman ümumiləşmiş şəkildə, bədii obrazlar vasitəsilə bir zamanlar baş vermiş faciəni və hadisələrin sonrakı inkişafını dolğunluqla əks etdirir".*

Bundan sonra oxucu bəlkə də, müəyyən qədər fikrə gedir. Əsəri oxumaq, oxumamaq və yaxud da tərəddüdlərinin səbəbləri haqqında düşünür. Oxuyacağı əsərin uydurma olduğunu, yoxsa tarixi həqiqət kimi, tarixi həqiqətin öz əksini tapdığına inanmalı olduğunun qənaətinə gəlir. Şübhəsiz, tərəddüdlər bütün məsələlərdə hər hansı bir mürəkkəb parosesin başlanğıcında həmişə özünü göstərir. O cümlədən, hər hansı bir oxucu üçün də əsəri oxumağa başlayarkən belə tərəddüdlər təbii olaraq özünü göstərir.

Yazı belədir ki, əgər müəllifin canlı mühitindən gəlirsə, oxucunu az bir vaxtda, bir neçə səhifədən sonra ram edə bilirsə, özünə çəkə bilir.

«Xocalı şikəstəsi» əsəri elə ilk səhifələrdəncə sarsıdıcı məqamlarla oxucunu gözəgörünməz cazibə gücü ilə özünə çəkir.

Müəllif əsərin əvvəlində publisistik düşüncələrlə onu «Xocalı şikəstəsi»nə gətirən yolu bir neçə abzasda yazıya gətirir: *«Düz deyirlər, bu həyatda nə desən baş verir. İndi sizə söylənən, əzabları bitib-tükənmək bilməyən, hətta inanılmaz görünən bu məşəqqət 1992-ci il fevral ayının 26-da zülmət gecənin tən yarısı Azərbaycanın Xocalı adlı məkanında həqiqətən baş verib. Aradan 26 il keçsə də (2019) o gecənin yüzlərlə günahsız insanın sinəsinə çəkdiyi dağ bu romanda bir ailənin timsalında hələ də incidir, əzab verir, dəhşətli ağrılar bitib-tükənmək bilmir. Hərdən adama elə gəlir ki, bu üzüntü heç qiyamət gününə qədər də bitməyəcək... Ömürdən ötüb keçən nəinki günlər, hətta illər var ki, o illərə, o günlərə məxsus olmuşları daha heç bir zaman yada salıb xatırlaya bilmirsən, onlar yaddaşın hansı dərin küncündəsə qaranlığa batıb yox olur, bir anı, bir dəqiqəsi, bir saniyəsi belə yenidən canlanmır. Amma elə gün var, elə gecə var, bir saniyəsini istəsən belə unutmursan. O gün, o gecə qəlb, ömür kitabına pozulmaz hərflərlə yazılır. Fərq etməz, o səni sevindirir, yoxsa ağladır... Həmin gecə gördükləri dəhşətlər, faciələr hər gün elə indicə baş verirmiş kimi onların gözü önündən dönə-dönə axır, hər gecə yuxularını qarışdırıb həyatı cəhənnəmə döndərir. Qatbaqat yaşayırlar o dəhşəti. Yurd həsrəti həmin insanların qəlbini oda-alova bükür, Vətən həsrəti, torpaq yanğısı içlərini yandırıb-yaxır, külə döndərir. Qınayan olmasa, hər biri günün günorta çağı küçənin ortasına çıxıb qışqırar, kar olan qulaqlar eşidənə qədər, bir an ara vermədən bu müsibəti törədənlərə lənət oxuyarlar. Hər an min-min uçarı quş olub Xocalıya, Qarabağa sarı qanad çalıb o yerlərə qonmaq həvəsinə düşərlər. o yerin, o yurdun havasıyla nəfəs almaq, suyundan içmək keçər könüllərindən. Üzlərini ana yurdun torpağına, daşına sürtmək, o yerlərin çiçəyini, gülünü qoxlamaq həsrətiylə alışar, od tutar ürəkləri. O an bəlkə də odlu-alovlu şair Şahmar Əkbərzadənin bu misraları yada düşər:*

*Bu payız küsəcək məndən Qarabağ,*
*Yollarda qalacaq gözü yolların.*
*Payım budaqlardan özün asacaq,*
*Bağrı çatlayacaq güleyşə narın...*

*Gözü yollarda qalan o gözəl, əvəzi olmayan torpağın arzusunu dindirmək istəyir onlar. Həsrətdən dodaqları çat-çat olmuş cənnət Qarabağın qoynunda dərindən nəfəs almaq cənnətə qovuşmaq deyilmi məgər?»* Doğrudur, bu qeydləri müəllifin oxucuya ünvanladığı məktub kimi də qəbul etmək olar. Bu qeydlərin özü bütövlükdə müəllif təəssüratı, əsərinə qapı açan düşüncə təsiri bağışlasa da, oxucuya ünvanlanmış qeydlərdir. Hətta müəllif özünə mənəvi borc bilir ki, Şahmar Əkbərzadənin poetik məktubundan bir bəndi də burada xatırladır.

Ş.Əkbərzadə Azərbaycanın böyük şairi idi. Poetik düşüncələrində də ədəbi kəşflər var idi, xüsusilə, nadir obrazlı ifadələr onun poetik imkanlarının nəyə qadir olduğunu göstərirdi. Elə «Mərkəzi poçtxana» ünvanlı şeiri də yurd düşüncələrinə güzgü tutan bir əsərdir. Qısası, müəllif həmin şeirdən gətirdiyi bəndi təsadüfi xatırlatmır. Yəni elə burada oxucuya təqdim etdiyimiz parçanın özü də Ş.Əkbərzadənin poeziya dili ilə dediyinin Ulduz Qasımın dilindən publisistik ifadə tərzidir. Yəni bununla psixoloji əsaslandırma aparmaq niyyətilə bu qeydlərin Ulduz Qasım tərəfindən oxucuya ünvanlanmış məktub olduğunu bir daha diqqətə çəkmək istədim. Müəllif yazının sonunda imza əvəzinə yazır: *«Qeyd: Əsərdəki hadisələr Xocalı sakinlərinin söylədikləri əsasında qələmə alınıb».* Bununla da müəllif öz əsərinə qapı açır və onu insan reallığından kənar, sanki qorxulu bir filmə baxmağa dəvət edir.

...Bunlar sanki titrdə yazılanlardır. qorxulu bir filmin motivi haqqında ilkin məlumatdır. Oxucunu hazırlamaq (tamaşaçını hazırlamaq) məqsədi daşıyan ilkin qeydlər psixoloji səfərbərlik tələb edir.

Ulduz Qasım "Xocalı şikəstəsi" romanının film-mənzərəsini yaradarkən hər hansı bir romantik düşüncədən kənarda durmağa çalışır. Bütün istedadını səfərbər edərək özünü reallıq müstəvisinə çəkir və bu müstəvidən tribuna kimi istifadə edərək oxucusu ilə təmas qurur.

Bu təmas bəzən şaxtadan, soyuqdan, bəzən oddan, istidən keçir. Əlbəttə, həmişə söhbət həqiqi şaxtadan, soyuqdan yox, həqiqi istidən, oddan yox, həm də məcazi anlamdan gedir. Bəli, insanların bir-birinə olan soyuqluğu heç də Xocalı şaxtasından az dondurucu deyil. Eləcə də həyatın odu, alovu öldürücü silahların düşmən yanğınlarının təhlükəsindən az deyil.

*05.09.2022*

## 1. Qar üstündə yazılanlar

Az qala bir qərinə qədər vaxtın keçməsinə baxmayraq, hələ də Xocalı faciəsinin anatomiyasını dərk etmək nəinki sadə adamlar üçün, hətta böyük siyasətin aparıcı oyunçuları üçün də çətindir. Məhz elə buna görə də "Xocalı şikəstəsi" kimi əsərlərin və Ulduz Qasım kimi yazıçıların varlığı hadisələrin qar altında (tarixin qaranlıqları altında) qalan izlərinə işıq salır.

Ulduz Qasım "Xocalı şikəstəsi" əsərini Xocalıdan çıxışdan başlayır. Əsərin - faciənin insan daşıyıcıları artıq Xocalıdan qısa məsafədə də olsa, kənardadır. Və yazıçı da elə bu məqamdan sözə başlayır.

Xocalıdan çıxanları ermənilər izləməkdədir. Hər kəs öz canının hayındadır. Son ana qədər Xocalını tərk etməyib kömək gələcəyinə inanan insanların ölümlə, işgəncələrlə üz-üzə qalması labüddür. Yazıçı da elə əsərinə belə həyəcanlı notlarla başlayır: «-*İmdadımıza çat, Allah! - Sus! Tez elə qızı da götür, girin ot tayasının içinə. Mən deməmiş çıxmayın ordan. Baxım görüm, yan-yörədə kimsə var, ya yox?*

*Qonşuların səsi-küyü lap uzaqdan gəlir. Bəlkə lənətə gəlmişlər hamını qırıblar? Ov tüfəngini axurda gizlətmişdim... Gedim eşələyim, görüm tapırammı? Nə də olmasa, yaman günün yarağıdı. Allahdan, bayaq tövləyə girəndə əl fanarını götürmüşəm. Məryəm ətraf duymasın deyə imkanı çatan qədər səsini boğaraq vaysındı: - Oğlumu, balamı vurdular!*

*- Əgər istəmirsən hamımız məhv olaq, sus, Məryəm! Tövlədə olmasaydıq, çoxdan o dünyalıq eləmişdilər. dediyimi eləyin. Eşidirsən, qızı da götür, ot tayasının içində gizlən. gözləyək, baxım görüm, neynirik...*

*- Yox, səni tək qoyub heç yana gedən deyiləm. Qorxuram, Fərhad...*

*- Ay qız, sənə deyirəm get! Eşitmirsən, vanövsəni? Allah göydən başımıza daş yağdırır, daş...*

*Məryəm ətrafdan gələn ataş səslərindən hövllənib hər iki ovcunu qullaqlarına sıxdı.*

*- Uzaqda deyillər, hər an qayıda bilərlər. səhər açılmamış necə olur-olsun, özümüzü meşəyə çatdırmalıyıq. Hava işıqlansa, heç! Cəld olun!*». Deyəsən, oxucu qiyamətlə üz-üzədir. Hadisələrin bu qədər dərəcədə gərgin, dəhşətli, ölümlü, qanlı məqamları ilə başlayan əsər insan hisslərinin tarımı boyu davam edir.

Əsərin əvvəlindəcə biz obrazlardan birinin - yəni əsər boyu bütün hadisələrin önündə görünəcək obrazın adına elə ilk sətirlərdəncə rast gəlirik. Bu, Məryəmdir.

Bəlkə də hadisələrin sonrakı gedişində ümumi qanunauyğunluqdan kənar proseslərə rast gəlsəydik, başqa sözlə, Məryəmin təbiət etibarilə xilaskar simasını görməsəydik, bu adın ona müəllif tərəfdən verilməsini təsadüfi hesab edə bilərdik. Başqa sözlə, elə hadisələrin əvvəlindəcə biz bütün təbiətilə Azərabycan-türk qadınının zəngin - qorxmaz, geniş qəlbli, hər cür əzaba dözmək gücündə olduğunu göstərən bir sima ilə qarşılaşırıq. Və elə bunu ilk səhifələrdəncə müşahidə edirik.

Bəlkə də, dünyanın heç yerində Məryəmin prototipi ola biləcək özgə bir obraz tapmaq mümkün deyil. Doğrudur, öz şagirdləri ilə faşistlərin ölüm kamerasına gedən müəllim obrazı da var, ölüm kamerasının qarşısında nikbin notlarla ölüm vahiməsini dağıdan, insana gələcəyin mütləq olacağını göstərən nəğməli iradə sahibləri də var, yəni belə obrazlar var. Amma hər halda Məryəm Xocalı faciəsinin yanratdığı və Ulduz Qasımın «*Xocalı şikəstəsi*» romanından üzə çıxardığı nadir simalardan biridir. Onun təbiətinin möhtəşəmliyi haqqında məlumat alacağıq. Ona görə bəzi hadisələri qabaqlamamaq şərtilə Məryəmin ailəsinin düşdüyü vəziyyəti əsərin elə əvvəl səhifələrində göstərilən vahimə müstəvisində oxucuya çatdırmağı daha üstün bilirik: «*Məryəm bayaqdan bəri çaş-baş qalan, qorxudan gözləri böyüyən qızının əlindən tutdu, onu ot tayasına tərəf dartdı. Qupquru ot-ələfi eşələyib taya oyuğunun içinə girdilər. Pəri nə baş verdiyini doğru-düzgün dərk edə bilməsə də fəryadlar, ağlaşma, qışqırtı, atışma səsləri onu dəhşətə gətirirdi...*

*-Ana, niyə evimizə getmirik? Niyə qışqırtılar hər yerdə? Bunlar kimdi? Ermənilərdi?*

*Anası əli ilə onun ağzını yumdu, yəni, səsini çıxarma! Hardasa xeyli aralıdan gələn ermənicə danışıq səslərini eşidən Məryəm tir-tir əsir, hər nədən irəli özünün və bir əlcə qızının o vəhşilərin əlinə düşəcəyindən qorxur, bu zaman ona elə gəlirdi ki, başının ortası keyləşir, damarında qan donur. Səslər uzaqlaşdıqdan sonra bir az özünü ələ ala bilsə də ərindən aralı düşmək, onu itirmək qorxusu yenidən təlaş qasırğasına çevrilib əl-ayağını uçundururdu. Qorxuya baxmayaraq arabir başını ot tayasının altından qaldırıb, yan-yörəyə göz gəzdirdi. Həyatin zəif işığında kimsə görünmürdü. Amma xeyli aralıda yenə imdad səsləri eşidilirdi. Qadınların vay-şüvəni sinə dağlayırdı, tüklər biz-biz olurdu.*

*Birdən kimsə onun əlindən yapışdı. Dəhşətli diksinti içində onsuz da solğun olan sifəti qar kimi ağarıb dondu.*

*- Qorxma, Məryəm, mənəm.*

*- Allah sənə şükür!*

*- Tez olun. getməliyik. cəlladlar kəndin ortalığında, bir də yuxarı başdadılar, kiminsə burada qalmağı ağıllarına gəlməz.*

*- Fərhad sanki sayıqlayırmışcasına kimə müraciət etdiyi bilinmədən danışırdı.*

*- Deməli, Pəri yatılı olub, qaranlıqda görməyiblər. Fuad səsə çölə çıxmasaymış, salamat qalarmış. Hara baxırsan, ay Allah, nədi bu binəva millətin günahı, ərşə çıxan bu zülmü niyə görmürsən? Qonum-qonşu, qohum-əqraba hamısı qanına qəltan oldu, gözümüzün ağı-qarası tək oğluma qıydı qansız cəlladlar. Cəld ol, Məryəm, nə qədər ki, aralıdadırlar, heç olmasa sizi təhlükəsiz bir yerə çıxarım. Hanı qız?*

*- Otun altındadı.*

*Məryəm otun içindəki oyuqda qısılıb qalan Pərinin əlindən tutub özünə sarı çəkdi: - Qorxma, anan qurban, atan yanımızdadı, burdan nə qədər tez aralaşsaq bir heylə yaxşıdı.*

*Anasının əlindən möhkəm yapışan qız hara və niyə getdiklərini bilməsə də qaçmağa, valideynləri ilə ayaqlaşmağa çalışdı. Anasının ağlaya-ağlaya, gücələ eşidiləcək səslə Yaradandan kömək istəməsi, bu müsibətin necə də qorxulu olduğunu bildirir. Onun qolundan möhkəm yapışan Məryəmin əlinin yarpaq kimi əsib titrəməsi qorxudurdu qızı. Uşaq olsa da anlayırdı ki, nəsə soruşmağın zamanı deyil, nəsə çox pis şeylər baş verir...*". Nəyə görə bu parçaları bütöv vermək niyyətindən imtina edə bilmirəm. Çünki yeni nəsil artıq Xocalı faciəsini ümumi şəkildə qavramağa çalışır. Sanki bu, bir anın işiymiş, düşmən insanları güllə-baran edib, sonra da hər şey dayanıb və faciə də, ağrı da elə həmin günlərlə bitib. Bu, zamanın ikili mövqeyi ilə bağlıdır.

Hər halda bizim məqsədimiz budur; yeni nəsil insanların yaddaşında qlobal faciənin mahiyyətini doğru-düzgün - olduğu kimi göstərmək niyyətimizdən geri dura bilmərik.

Təbiidir ki, ayrı-ayrı epizodları təqdim edərkən baş verən hadisələrin xronikasını bir neçə cümlə ilə də ifadə etmək olar. Ancaq bədii əsər öz missiyasını nə qədər yerinə yetirmək imkanındadırsa, ədəbi publisistik əsər də elə o dərəcədə hadisələrə güzgü tutmaq gücündə olmalıdır, - qənaətini əsas tutaraq yazıçının əsərin əvvəlində yaratdığı qeyri-adi mənzərəni biz də olduğu kimi düşüncələrimizin arasına gətirməklə yazıçı məqsədinin oxucuya çatmasına yardımçı olmaq istəyimizin əsaslı olduğunu diqqətə çatdırmaqdayıq: «*Qarın üstü ilə yerimək çətin idi. Ona görə də yeyin gedə bilmirdilər. Meşənin ağacları get-gedə sıxlaşan yerinə çataçatda uşaq səsi eşitdilər. Fərhad ehtiyatlandı. Bu səs onları bəlaya sala bilərdi. Əlindəki fanarı səsə tərəf tutdu. Yerə uzanılı, hənirsiz qadının yanında ağlayırdı körpə. Fərhad uşağı qucağına aldı.*

*-Ağlama, bala, ağlama, görən kimlərdəndi bu bədbəxtlər?*

*-Kimlərdən olacaq, kəndin adamıdı, yəqin. Yoxsa, gecənin bu vədəsində burda nə gəzir belə tifil körpə?..*

*Səsi eşidən körpə daha bərkdən qışqırmağa başladı. Qaranlıq meşənin vahiməsi uşağı sarsıdıb havalı dərəcəsinə çatdırmışdı. Məryəm Pərini bağrına basdı.*

*-Elə bil, bu uşaq laldı. Ya da qorxudan dili batıb.*

*- Fərhad, neyləyək, bu uşaq hamımızı qırğına verər. Deyəsən heç yerimir, danışmır hələ.*

*Fərhad halsız halda qarın üstünə döşənib qalmış qadına sarı əyildi. Sağ olub-olmadığını bilmək istədi.*

*-Kimsən, kimlərdənsən, a bajı?*

*Qadın erməni ləhcəsində, amma türkcə qırıq-qırıq mızıldandı:*

*-Lənətə gəlsin hamısı! Hüseyn əmigilin tanışıyıq. Onlarda xeyir iş var idi, çağırmışdılar. Qonaq getmişdik. Allah qoymasa. Öz qırılmışlarımız bu kökə saldı bizi. Ərimi də vurdular. Nədi-nədi azərbaycanlıya qonaq getmişik. Sizi tanıyıram.*

*Yaralı erməni qadının qırıq-qırıq kəlmələrindən belə anlaşılırdı ki, Fərhad həkimi tanıyır. İndi onun qucağında tutduğu körpəni və ondan bir neçə yaş iri oğlu xəstələnəndə onun yanına müalicəyə aparıb. Qadının son yalvarışı ilə birlikdə son nəfəsi də vahimli, qaranlıq meşədə, Allah bilir neçə saatdan bəri əsim-əsim titrəyən bədənindən ayrıldı. Çarəsiz ana ölüm ayağında yalvarırdı ki, körpəsinə rəhm eləsinlər, onu bu cəhənnəmdə atıb getməsinlər*". Kimin ağlına gələr? Görün nələr baş verir? Bir ailənin yeganə oğul övladını ata-anasını gözləri qarşısında güllə-baran eləyiblər. Onun bədəni deşik-deşik olub, hətta cəsədini götürmək belə nəsib olmayıb. Gənc ata, gənc ana və körpə qız canlarını xilas etmək üçün cəlladların gözlərindən yayınmağa çalışıblar.

Bu ailədə ata həkimdir, onu uzun müddət Xocalıda Fərhad həkim kimi tanıyıblar. Yanına müalicə üçün gələn ermənilər və azərbaycanlılar özlərinə simsar biliblər. Amma indi vəziyyət elə dəyişib ki, nə Fərhad həkim, nə də Məryəm müəllimə (o, ingilis dili müəllimәsi idi) insanların birdən-birə bu qədər dönükləşməsinin səbəbini heç indi də özləri üçün aydınlaşdıra bilməyiblər. Bütün bunların hamısı bir tərəfə. İndi birdən-birə yolda onlar təsadüfən ağır yaralanmış erməni qadını və yanındakı körpə uşağı ilə rastlaşıblar. Onları da ermənilər güllələyib. Onlar azərbaycanlı ailəsinə qonaq gəlmişdilər. Bəli, hələ bir-birinə inanan insanlar var idi. Onlar ümumi barışığın olacağına inananlar idi. Faşizm üçün isə heç bir dostluq, doğmalıq münasibəti qəbul olunan deyil. Onlar qarşı tərəfi sonuncu nəfərinəcən məhv etmək iddiasındadırlar. Xocalıya qonaq gələn erməni ailəsindəki ata da elə özünün humanist hisslərinin qurbanı olur. Yəni faşistlər üçün qəbul olunan deyil; sən nə üçün azərbaycanlı ailəsinə qonaq getmisən. Yolda ana da gülləyə tuş gəlir və körpə uşaq da yanında qalır. Ananı son nəfəsində Fərhad həkim görür və ananın öz körpəsini ona əmanətləməyini tarixi bir hökm kimi yaddaşına yazır.

Müəllif hansısa bir oxucusunun bu hadisənin doğruluğuna şübhəsini nəzərə alır, ya almır? - bunun məsələyə dəxli yoxdur. Hər halda bu, bir həyati hadisədir və ən azı baş verə bilən hadisədir.

Ata üçün, ana üçün nə qədər çətindir. Yeganə oğul övladını gözlərinin qabağında güllələyənlərin uşağı indi kimsəsizdir. Onların ümidinə qalıb. Ümumiyyətlə, hər hansı bir bədii əsəri nəzəri cəhətdən ümumi təhlil etmək başqadır, əsər boyu hadisələri xarakterizə etmək, obrazları məhz yaşadıqları məqamlara görə oxucu diqqətinə çatdırmaq, oxucuya tanıtmaq tamam başqa məsələdir.

Ulduz Qasımın «*Xocalı şikəstəsi*» romanının məziyyətlərini ümumi şəkildə oxucuya çatdırmaq bizim işimiz deyil. Bizim işimiz yazıçının müəyyən emosional məqamlardakı psixoloji kəşflərinin obrazlarının mənəvi hərəkətlərini xronikaya uyğun oxucuya çatdırmaqdır.

Elə bu səbəbdən də - yəni əsərin təəssüratına uyğun olaraq hadisələrin gedişatını oxucu düşüncəsinə uyğunlaşdırmaq üçün prosesi müəllif diktəsilə aparmağı daha üstün hesab etdik. Əgər belədirsə, onda oxucu buyursun, qar üstündə hərəkət edən insanların ölüm qorxusu altındakı münasibətlərinin də şahidi olsun: "*Məryəm ölümün ağuşunda çapalayan qadına ikrahla baxıb dodaqaltı vaysınırdı ki, bunda həyasızlığa bax, bizi yer-yurdumuzdan didərgin salıblar, camaatı böyüklü-kiçikli qanına qəltan eləyiblər, çarəsiz insanlar canını qurtarmaq istəyən yalquzaq kimi gecəyarısı, qar-boran demədən ayaqyalın, başıaçıq meşələrə səpələnib. Bu da istəyir ki, dığasını xilas edək, isti paltarımıza büküb, qoynumuzda ilan bəsləyək. Bəs mən ana deyiləm? Gözümün qabağında madar oğlumu qanına bələdilər. İndi mən erməni balasını qucağıma alım, ona nəfəs verim?*

*Məryəm Fərhadın ürəyinə bələddi. Peşəsinə olan sədaqətini də bilirdi. Odur ki, ərinə qəti şəkildə söylədi ki, uşağı götürmək fikrinə düşməsin.*

*- Fərhad, - dedi, Məryəm, - əgər bu uşağı özümüzlə götürsək, hər şey cəhənnəm, yolda aclıqdan, soyuqdan qışqırıb ağlayacaq. Hər kolun dibində bir erməni cəlladı pusqudadı. Vallah, əməlli-başlı başağrısıdı, bu dığa, özümüzə iş açmayaq...*". Yəqin ki, bu qeydləri oxuyan və hər hansı bir əsər haqqında nəzəri əsaslarla düşünən mütəxəssis oxucu bu cür təfərrüatı məqbul hesab etməz. Bəlkə də haqlıdır...

***06.09.2022***

# VI. "XOCALI ŞİKƏSTƏSİ"NİN YARALI SƏSİ

## 2. Qanlı izlər, yaralı sözlər

Xocalı faciəsi qərinə ömrünü tamamlamaqdadır. Bu qədər böyük, yazının əvvəlində göstərdiyimiz xronikaya uyğun rəqəmləri yada salsaq, deməliyik ki, miqyazsız hadisə üçün seçilmiş yazı üslubu bəlkə də hələ qənaətbəxş deyil. Bəlkə də elə bir yazı üslubu tapılmalıdır ki, bundan da artıq qabarıqlıqla Xocalı vahiməsinin mahiyyəti oxucuya çatdırılsın.

Doğrudur, müxtəlif aspektdə filmlər çəkilib, sənədli xronikalar hazırlanıb, bədii əsərlər yazılıb. Amma yenə bunların hamısını bitmiş bir nöqtə ilə yekunlaşdırmaq mümkün deyil. Elə buna görə də Xocalı hadisəsinin təkcə bir millətin tarixi taleyindəki faciə kimi qavramaq da düzgün deyil. Müəllifin erməni uşağını azərbaycanlı ailəsinin taleyinə urcah etməsi hadisəsi göstərir ki, bu, elə həm də sadə, siyasətdən kənar, dinc həyat yaşamaq istəyən ermənilərin özlərinin də faciəsidir.

Çətindir, oğlunu ermənilərin öldürdüyü ananın qar üstündə çabalayan, yanında anası ölmüş erməni uşağına ikrahla baxması tam təbiidir. Amma son nəticədə insani hiss, vicdani hiss qalib gəlir. Özü də ictimai rəyin gücünə qalib gəlir. Yəni Fərhad həkim, onların qızı Pəri (körpə uşaq) erməni uşağının öldürülməsinin, qar üstündə tənha buraxılmasının tərəfdarı olmurlar. Hətta Pəri - Fərhadın və Məryəmin kiçik yaşlı qızları təkidlə tələb edir ki, uşağı qar üstündə kimsəsiz və sahibsiz qoyub getmək olmaz. Pəri bu kiçik körpənin erməni uşağı olduğunu dərk etmək iqtidarında deyil.

İnsanın tale yolu heç vaxt proqramlı deyil. Kimsə deyə bilməz ki, həyat onun üçün hansı sürprizləri hazırlayır. Xocalı sakinlərinin başına gələn hadisələr də müəyyən gözlənilməzliyin nəticəsi kimi meydana çıxmışdı. Nəinki Xocalı sakinlərinin özləri, heç hökumət adamları da təsəvvür edə bilməzdilər ki, erməni vandalları bu qədər dəhşətli cinayətlərə əl ata bilərlər. Heç bir qanuna, kitaba sığmayan əməllərin müəllifləri olarlar.

Məlumdur ki, sonralar həmin cinayətin başçılarından biri Serj Sərkisyan yazırdı ki, biz Xocalıda belə bir stereotipi dağıtdıq ki, məqsədimiz naminə dinc əhalini öldürə bilərik, qıra bilərik. Bəli, azərbaycanlılar inanmırdılar ki, biz dinc əhaliyə əl qaldıra bilərik. Bunu S.Sərkisyan öz etirafında bildirib, özü də utanmadan, çəkinmədən. Hələ erməni faşizminin ideoloqu Z.Balayan da türk uşağının ağaca mismarlanmasına necə zövqlə baxdığını da həyasızlıqla etiraf etmişdi. Hətta uşağın neçə dəqiqəyə can verməyi belə onun yazılarında fakt kimi göstərilir. Bütün bunları ona görə xatırlatmağa dəyər ki, Ulduz Qasım "Xocalı şikəstəsi" romanını təxəyyül məhsulu kimi yaratmayıb. Real həyat hadisələri əsasında yazıya gətirib. Göründüyü kimi, məsələni həll etmək o qədər də asan deyil. Hətta birmənalı həll etmək Fərhadın da gücü xaricindədir. Axı onun da qəlbi yaralıdır. Oğlunun ermənilər tərəfindən güllələnməsindən çox keçməyib. İndi belə vəziyyətdə Fərhad uşaqdan imtina etməyi tələb edən arvadı Məryəmi qınamağa da gücü çatmır.

Həyatda belə hadisələr azmı olur? İnsanla qeyri-insanlıq, xeyirlə ona qarşı duran qüvvə azmı qarşılaşmalı olur. Axı burada etiraz edən tərəf kimi Məryəmin özünü də qınamaq olmur. Əgər qana-qan, ölüməölüm deyilirsə, onda gərək qar üstündə sahibsiz qalmış uşağı Fərhad güllələyəydi.

Məşhur *«Fəryad»* filmindəki məlum epizodu yada salaq: əsərin qəhrəmanı əsirlik əzablarını yaşayan İsmayıl (Ceyhun Mirzəyev) binanın bütövlükdə yandırılması üçün imkan fürsətini qaçırır. Sonra ermənilər nə üçün bunu icra etmədiyini soruşurlar. O isə yanında ağlayan uşağı göstərib deyir: *«Bu günahsız körpənin ölümünə nə ilə bəraət qazandırmaq olar?»*. Bu, azərbaycanlı düşüncəsidir, yəni günahsızlığın özü böyük sədd yaradır. O səddi ayaqlayıb keçmək heç də asan deyil. Bu mənada Fərhad həkimin və onun həyat yoldaşı Məryəm müəllimənin və balaca Pərinin qar üstündə kimsəsizlikdə ölümlə üzbəüz qalan körpəyə münasibəti kifayət qədər anlaşılan və başa düşüləndir. Amma hər halda münasibətlər hələ də gərgindir. Heç də məsələ asanlıqla humanist mövqedən öz həllini tapmır. Hələ nə qədər psixoloji çarpışma getməlidir: *«Fərhad bir an duruxdu, sonra qəfil ilan çalmış kimi meyitdən, ona sarı dartınan uşağın qorxudan hədəqəsindən çıxan gözlərindən uzaqlaşmaq üçün dar cığırla irəlilədi. Elə bu zaman körpə bayaqkından daha yanıqlı səslə ağlamağa başladı. Var gücüylə qışqıran uşağın səsi insanın tüklərini ürpədir, qəlbini dağlayırdı. Məryəm ayaq saxladı.*

*- Fərhad, öldür onu. Qoy səsi kəsilsin.*

*- Ana...*

*- Nədi, Pəri?*

*- O, lap balacadı, yazıqdı!*

*Məryəm qızının soyuqdan donan əllərini donunun ətəyindən aralamaq istədi.*

*- Kiri, qız, yum ağzını. Nə tez yadından çıxardın, bəlkə elə qardaşının canına qıyan bu dığanın dədəsi idi. Sabahdan bəri kəndi başına götürən fəryadları nə tez yadından çıxardın, bala?*

*- Ana, onun nə günahı var?*

*Məryəm yenə israrından dönməyib ərinə hökm etdi:*

*- Sənə deyirəm, vur onu, Fərhad!*

*Fərhad sanki görəcəyi qorxunc işin vahiməsinin təsiriylə təntiyə-təntiyə:*

*- Yox, Məryəm, mən bacarmaram.*

*Məryəm: - Bəri elə, tüfəngi, - dedi və Fərhadın sol çiynindən aşırdığı qoşalüləni dartıb götürdü. Tüfəngi körpəyə tuşladı. Qadının tətiyə güclə çatan donmuş barmaqları dəhşətli bir çarəsizliklə uçundu, bütün bədəni əsdi, dizi üstə yerə çökdü, hönkürdü. Bir az əvvəl gözünün qabağında doğma oğlunu dəlik-deşik edən millətdən törəyən körpəni vurmağa ananın əli qalxmadı!».* Bu məsələnin özü də gərgin psixoloji, dramatik bir vəziyyətin təzahürüdür. Və burada asanlıqla kimsəni qınamaq mümkün deyil.

Elə bil ki, insaniliklə qeyri-insanilik çarpışmadadır. Kim qalib gələcək, hansı tərəf haqlı olduğunu göstərəcək, yaxud da qarşı tərəf haqsız olduğunu başa düşəcək... bunun üçün sərf olunan vaxt o qədər də uzun deyil. Hadisələr o qədər gərgin, o qədər sürətli yük daşıyır ki, biz anbaan vəziyyətin dəyişdiyini hiss edirik. Bu prosesdə Məryəm erməni uşağına qarşı münasibətdə qəddardır. Sərt mövqe tutur. Ancaq onu asanlıqla qınamaq və yamanlamaq da mümkün deyil. Artıq bunun səbəblərini izah etmişik. Sanki qar üçtündə çabalayan körpənin ağlayışı, harayı, fəryadı bir mühakimə müstəvisi qurur.




Bu mühakimə müstəvisində Məryəm ittiham olunur, eyni zamanda Məryəm həm də ittihamçıdır. O, günahsız balaca oğlu Fuadın güllələnməsi üçün təqsirkar olanların nümayəndəsi kimi görür qar üstündə fəryad edən erməni uşağını.

Bir sözlə, ana birmənalı şəkildə intiqam almaq istəyir; bir andaca körpəni güllələmək, onun səsini kəsmək istəyir. Hətta bunun üçün ərinin əlindən silahı da çəkib alır. Amma öz istəyini icra edə bilirmi:

*"Məryəmin əlindən sürüşüb düşən tüfəngi qaldırıb çiyninə keçirdən Fərhad həkim ikinci dəfə aşağı, qalın qarın altında tapdanıb bərkimiş yer səthinə sarı əyildi, üşüntü və qaranlıq vahiməsindən, aclıqdan, susuzluqdan başqa heç bir hissiyyatı olmayan yad körpəni, düşmən balasını qucağına götürdü. Ani olaraq ayıb iş tutan günahkar gözlərlə ömür-gün yoldaşına baxdı və bəraət üçün söz tapmadı. Bircə kəlmə: - Gedək, dedi, - bayaqkı cığır boyu qaranlığın içinə addımladı.*

*Xeyli getmişdilər. Birdən səs-küy qalxdı. Diksinən yad uşaq yenidən qışqırmağa başladı. Fərhad əliylə onun ağzını qapayıb pıçıldadı: - Ay uşaq, gələn ermənidi, qışqırma!*

*Və bundan sonrası cəmi-cümlətani üç-beş dəqiqənin içində, fantastik filmlərdəki kimi baş verdi.*

*Qabaqdakı adam atəş açdı. Yəqin ki bu, bir yanlışlıq, səhvən atəş deyil, sirri-xudadır, necə oldusa arxadan gələn ikinci adamın gülləsi əvvəl atəş açanı tutdu. Fərhad vurulan ermənin silahıyla atəş açdı. Bu silah necə olmuşdu ki, Fərhadın əlinə keçmişdi, o niyə atəş açmadı, arxadan gələn yaraqlı nə təhər olmuşdu ki, onları güllələmək əvəzinə öz yoldaşını vurmuşdu? Fərhad neçə illər sonra da silahın onun əlinə keçdiyini xatırlaya bilmirdi; sadəcə, donmuş barmaqlarıyla tətiyi çəkdi. Deyəsən, onlar elə iki nəfərmiş. Səs-küy dərhal kəsilsə də uşaq sakitləşmək bilmirdi. Fərhad əlindəki fanarı bir an əvvəl gəbərtdiyi adamın üzünə tutdu. Onun ölüb-ölmədiyini yoxlamaq istədi. Birdən Məryəm yerə yıxılan cəsədə baxıb qışqırdı: - Bu, Fuadı vuran ermənidi. Evə soxulanda görmüşdüm mürdəşir yumuş sifətini...*

*Və aşağı çöküb yerə sərilmiş meyidi yumruqlamağa başladı:*

*- Əclaflar, qaniçənlər, Allah sizin balanızı versin! Cəlladlar! Parçalayacam səni! Tüfəngi mənə ver, Fərhad!*

*- Məryəm, əl çək murdar dığanın leşindən. dur ayağa, vaxt itirməyin mənası yoxdur, tərk eləməliyik buraları. Dörd tərəf doludu qana susamış çaqqallarla. Bilirlər ki, sağ qalanlar bu yolu keçəcək. - Qadın onun dediklərini sanki eşitmirdi. Durmadan meyiti yumruqlayırdı. - Gəbərdin! Gördün? Uzun çəkmədi körpə qanı yalamağın! Al, al, köpək!*

*Fərhad güclə onu meyitdən araladı: - Özünü ələ al, aralan bu leşdən!».* Sonuncu hadisələr sanki körpə uşaqla bağlı düyünün açılmasına xidmət edir. Əslinə qalsa, Məryəm ona görə sakitləşir ki, o, oğlunun əsl qatilini gözünün qabağında görür və onun məhvinin, ölümünün şahidi olur. Demək olar ki, bunu özü icra edir.

Yazıçı sanki bununla demək istəyir ki, hər kəs öz əməlinin cəzasını alır, tez-gec əməlinin əvəzini görür. Bütün bunlar onun sübutudur ki, həyatın ümumi bir nizamı var. Bu nizam tez-gec onu gözləyən hər kəsi razı salmalıdır.

Xocalıdan xilas olmaq üçün çıxanların yolu o qədər də aydın deyil. Az-çox ərazini bilən Fərhad həkimdir ki, o da yalnız cəhətə görə hərəkət edir. Ancaq yaxşı bilir ki, hər an erməni quldurları ilə qarşılaşa bilərlər. Elə bu səbəbdən də nisbətən ehtiyatla hərəkət etməyə çalışır.

Ulduz Qasım hadisələrin mahiyyətini bir ailənin timsalında vermək istəsə də, hadisələrin miqyası onun istəyindən asılı olmayaraq genişlənir. Burada Gülnisə adlı qadınla qarşılaşma səhnəsi də çox ürəkyaxıcıdır. Qadın öz qızını əllərilə torpağa basdırmağa çalışır ki, təki erməni quldurlarının əlinə düşməsin.

Əlbəttə, Fərhad həkimdir. Heç olmasa, Xocalı sakinlərini müəyyən qədər tanıyır. Gülnisə və onun qızı Lətifəni də görən kimi tanımışdı. Elə bu səbəbdən də onlar həkimi görən kimi ona ümidli nəzərlərlə baxırlar. Bir ananın öz qızını öldürməyə cəhd etməsi vəziyyətin nə dərəcədə faciənə olduğunu başa düşməyə bəhs edir. Gülnisə üçün ölüm elə də ağır cəza deyil. Amma qızının türk qanına susamış olan quldurlar tərəfindən təcavüzə məruz qalması onun üçün daha betər faciədir. Onun da həyat yoldaşı vaxtından çox əvvəl vəfat edib. Gülnisə öz qızını təkbaşına necə böyük zillətlə araya-ərsəyə gətirib.

**06.09.2022**

### 3. İnsanın əzabı daşımaq gücü

Dünya ədəbiyyatında insan əzabının haraya qədər dözümlü olduğunu göstərən əsərlər çoxdur.

İnsanın mənəvi mühitindəki harmoniyanı qoruyan əsas güc mənbəyi iradədir. Nə qədər ki, insan şüurunun hakimidir, düşüncə ilə idarə olunursa, bir o qədər də iradə özünü hifz edə bilir. Amma əzabların elə bir həddi var ki, bu zaman insan ağrının, əzabın, hətta iztirabların sonsuz axını qarşısında düşüncəsinin harmoniyasını qoruyub-saxlaya bilmir. Və bu zaman artıq iradə də düşüncəyə tabe olmur. Zənnimizcə, insanın mənəvi və fiziki ölümü bu zaman bir-birinə qovuşur və insanın varlığını tərk edir.

M.Şoloxovun "Əsl insan haqqında povest"i, C.Londonun "Həyat eşqi" əsəri, eləcə də Azərbaycan ədəbiyyatında insanın iradəsinə əzabın hansı dərəcəsinə qədər hakimliyini göstərən əsərlər az deyil. təkcə elə repressiya zamanı ayrı-ayrı şəxsiyyətlərə tətbiq olunan cəza şiddətləri də insanın iradəsini sındırmağın ən dəhşətli nümunələri kimi xronikalarda təkrar-təkrar yad olunur.

Ulduz Qasımın "Xocalı şikəstəsi" əsərində də insan iradəsinin əzablara hansı həddə qədər davam gətirə bilməsinə dair təkrarsız səhnələr az deyil. Biz bir qədər qabağa gedib Fərhadın əzablarla necə mübarizə apardığını göstərən səhnələri də burada xatırlada bilərdik. Eləcə də Məryəmin qarşılaşdığı səhnələr də çox sarsıdıcıdır. Hələlik biz insanın əzablarla döyüş mərhələsinin bir növ başlanğıcındayıq. Hətta burada da insanın təkcə düşmənlə savaşı yox, təbiətin sərt üzü ilə qarşılaşması da son dərəcə sərtdir. İnsanlar nəyin uğrunda, necə müğarizə aparırlar? Bu, bəlkə də bir ideal məsələsidir. Ancaq hər halda Xocalı qətliamından canını qurtarıb qaçmaq istəyənlərin qarşılaşdığı səhnələr onların həyat uğrunda mübarizəsidir, burada heç nədən söhbət getmir. Yalnız yaşamaq, ölümə təslim olmamaq uğrunda bu amansız savaş böyükdən-kiçiyə qədər hər kəsin həyat eşqi haqqında ən kədərli simfoniyalar kimi səsə çevrilir, kimsəsiz, qarlı-buzlu çöllərə yayılır. Hətta bu səsin motivini müəllif "Qarabağ şikəstəsi"nin səsi ilə obrazlaşdırır. Təbiətlə amansız savaşda olan insanların hətta ümidinin tükəndiyi məqamlarda belə bu səs həyat əlaməti olaraq son gücü toplamaqda yardımçı olur.

Ulduz Qasım hadisələrin xronikasını vermir. O, bütün gücü ilə obrazların düşüncə aləminə sirayət edir. Bununla da obrazları kifayət qədər oxucuya tanıdır. Oxucu isə yaddaşında günahsız bir qadının necə böyük bəla ilə rastlaşdığının sanki özü şahidi olur: *«Fərhad Gülnisəni tanıdı. Qadın özündə deyildi. Buzlu torpağı eşməkdən qanamış əllərini də sanki hiss etmirdi: - Neynirsən, ay bacı, bir dayan görüm.*

*- Sənsən, ay doxtur?*

*Xəndəkdən səsi gələn Lətifə idi. Gülnisənin dost-doğma balası:*

***- Həkim, qurban olum, qurtarın məni bu arvadın əlindən!***

***Ha yalvarıram əl çəkmir. Deyir diri-diri basdıracam səni.***

***Gülnisə hönkürdü. Qarda eşənək atmaqdan əl saxladı, dizi üstə xəndəyin qar basmış tirəsinə çöküb, başını heysiz tövrlə azca yuxarı qaldırdı. Sanki indi bir az əvvəl çalaya yuvarlayıb üstünü torpaqladığı dost-doğma qızını, tək balasını da unutmuşdu... namusunu qorumaq, yeniyetmə bakirə qızını yad əllərə düşməkdən xilas etmək üçün övladını diri-diri yerin altına basdırıb nəfəsini kəsməkdən özgə bir yol düşünə bilməyən ana donuq gözlərini məchul nöqiəyə tutub belə deyirdi:*** *- Bir Allah şahiddir ki, atası öləndən sonra tək başıma hansı zillətlə böyütdüm. Bir üzü gəlin, bir üzü qızıykən gənc yaşımda dul qaldım. Yad ata yanında minnətli çörək yeməsinə qıymadım. Göz bəbəyim kimi saxladım balamı. Sən də yaxşı bilirsən, ay doxtur, bircə haram loxma yedizdirməmişəm ona. Birinə yun daradım, birinə cəhrə əyirdim, birinin evini, tövləsini təmizlədim, əlimin halal qazancı ilə yekəltdim. Bir yalan, bir əyri söz öyrətmədim. İndi neyləyim mən bədbəxtin qızı. Gül kimi balamı erməni dığasına əsir verim? Allah keçsin günahımdan, imkan versin balamı öz əlimlə torpağa qoyum. Namusu itə atıblar, it yeməyib. Məni min dəfə öldürsünlər, uf da deməxəm. Bilirəm ki, görsələr əsir alacaqlar. Qonşu qız-gəlinləri komasıyla yığıb apardılar... Fərhad qadını özünə gətirmək üçün dedi: - Şükür Allaha, ay bacı, xilas ola bilmisiniz...*

*Qadın sanki həkimi nə görür, nə də duyurdu. - Biri evə soxulmuşdu. Məni görmürdü. Arxadan yarmaçayla boynunun dalından vurdum. Yıxıldı öldü-ölmədi, bilmirəm, qaçdıq çölə. Bura qədər də dizin-dizin, sürünə-sürünə gəlmişik ki, səsimizi eşidib tutmasınlar. Qurbanın olum, sən vur onu! Qoy barı, namuslu insanın gülləsinə tuş gəlsin, qızım. Yalvarıram, sən balalarıyın canı, vur onu. Yoxsa, dözə bilmərəm, əsir alsalar. Eşidirsən, həkim, dözə bilmərəm! - Fərhad qadının nə halda olduğunu anlayırdı. Bilirdi ki, hər bir azərbaycanlı qadın üçün namus nə deməkdir».* Hadisələrin bundan sonrakı gedişində ana və bala erməni quldurları tərəfindən öldürülür. Zənnimizcə, mənzərə kifayət qədər aydındır. Rənglər nə qədər qatı olsa da, bu, yazıçının işi deyil. Həyatın gətirdiyi rənglərin qıtılığıdır. Yazıçı isə öz missiyasını yerinə yetirir. İstedadı ilə mənzərənin hər bir detalını həyatın bəxş etdiyi tünd rənglərlə oxucuya çatdırmaq istəyir. Gülnisə və qızı Lətifə ilə bağlı əhvalat elə buradaca bitir. Ancaq Xocalı faciəsinin ən dramatik səhnəsi kimi unudulmaz bir yaddaş yarasına çevrilir. Öldürülən Gülnisə və qızı Xocalıda yüzlərlə həlak olanlardan biri kimi yox, elə erməni vəhşilərinin qətliamının qeyri-insani mənzərəsi kimi ümumiləşir.

Fərhad kifayət qədər qoçaqdır, igiddir. Ancaq bir nəfər - kim olursa-olsun, üzük qaşı kimi əhatəyə alınmış ərazidə hansı imkanlara malik ola bilər ki, vəziyyəti nizamlaya bilsin.

Bundan sonrakı hadisələr də bura qədərki hadisələrin davamı kimi cərəyan edir. Yeni obrazlar meydana çıxır, axı meşə insanlarla doludur. Qarın örtdüyü yolu tapa bilməyən adamlar neçə gün meşə içərisində vurnuxur, soyuq onların əllərini, ayaqlarını dondurur, aclıq, susuzluq da bir tərəfdən.

Yazıçının meşədə kimsəsiz, köməksiz qalmış insanlara öz sözü ilə yol açmaq imkanı yoxdur. Sanki taleyin ümidinə buraxılmış bu insanlar elə Allahın özü tərəfindən də unudulmuşdu.

Daha bir ailə ilə də qarşılaşmaq səhnəsi qətiyyən unudulmur. Hamilə qadın, iki qız, iki oğlan da Fərhadın başsız karvanına qoşulur. Vəziyyət getdikcə daha da gərginləşir. Erməni uşağının onlar üçün artıq yük olduğunu Məryəm isterik bir hirslə təkrar-təkrar Fərhada deyir. Ancaq Fərhad təkcə həkim missiyası ilə yox, bir azərbaycanlı humanizmi ilə uşağı qoruyur. Yeri gəlmişkən burada onu da demək lazımdır ki, onların qızı Pəri o qədər kiçikdir ki, erməni uşağının mənşəyi haqqında heç nə fikirləşə bilməz. Elə buna görə də Fərhad arvadına tapşırır ki, erməni uşağı haqqında heç kimə sonralar da məlumat verilməməlidir. Ancaq Məryəm dəfələrlə erməni uşağını güllələmək istəsə də son anda əli gəlmir.

Bundan sonra Zərifə də övladları ilə bağlı səhnə də oxucu gözlərinin önündən səssiz keçib getmir. Fərhad vəziyyətin kəskinləşdiyini gördüyündən Zərifənin uşaqlarını da Məryəmin himayəsinə verib onu mühasirədən çıxmağa təhrik edir. Buraya təsadüfən gəlib çıxan azərbaycanlı əsgərlərin qeyri-bərabər döyüşdə mərdanə hərəkətləri də unudulmazdır. Hətta burada azərbaycanlı əsgərlərdən biri həlak olur, digəri isə Zərifənin uşaqlarını və Pərini Məryəmla birgə mühasirədən çıxarmaq istəyir.

Əsərdən ayrı-ayrı parçaları təqdim etmək yazının özünün tələbindən irəli gəlir. Uşaqların meşə ilə hərəkəti son dərəcə sətindir. Elə bunun özü də Xocalı faciəsinin miqyası haqqında müəyyən təsəvvürə kömək edir: *«Onlar Fərhadın nişan verdiyi yola gedirdi. Dəhşət qaranlıq idi. Uşaqlar dəqiqəbaşı büdrəyib yıxılırdılar. Şaxta qılınc kimi kəsir, külək soyuq qarı yolçuların üzünə çırpır, addımlamaq get-gedə çətinləşirdi. Zərifənin balaca qızı Nəcibə yerə çökdü, zarıdı: - Qaqaş, yeriyə bilmirəm, ayaqlarım donub.*

*Samir bacısına ürək-dirək verdi:*

***- Bacı, az qalıb. Əgər burada yubansaq, o it uşağı bizi tapıb əsir alar. Sən bunumu istəyirsən? Qalx ayağa, qurban olum, dur gedək...***

***Məryəm Nəcibənin ayaqqabısını çıxardıb buz kəsmiş ayaqlarını bərk-bərk ovuşdurdu. Oğlanlardan kiçiyi də yerə çöküb zarımağa başlayanda qadın çaşıb qaldı. Nə edəcək, bu vəziyyətdən necə çıxacaqdır. Aralıdan səslər eşidildi. Dəstə yerində donub qaldı. Ağrıdan zarıyan uşaqların səsi boğazlarında ilişib qaldı. Onlar sanki nəfəs almırdılar".*** Yazıçı necə dəqiq ifadə edib. İnsan vahiməsinin təsiri altında, hətta öz nəfəsinin də təhlükəni yaxınlaşdıracağı qorxusunu daşıyır. Bu, vahimədir. Yəni insanın gücünü alan, onun inamını dağıdan, ümidini qıran bir təsirdir. Hər halda, insan inamını qorumaq istəyirsə, birinci növbədə vahimədən xilas olmalıdır. Yəni ölüm qorxusunun gətirdiyi hissdən xilas olmalıdır.

İnsafən yazıçı hadisələrin içərisinə o qədər sirayət edə bilir ki, öz qəhrəmanlarının hissləri ilə yaşayır. Elə bil ki, özü də bu kimsəsiz, köməksiz ölüm təhlükəsi altında irəliləyən, həyat uğrunda çarpışan insanların içərisindədir. Ümumiyyətlə, kənar müşahidəçi öz canında ölüm qorxusunu hiss etməsə, başqasının ölümlə bağlı yaşadığı duyğuları qədərincə, sonsuzluğu ilə yazıya gətirə bilməz. Ulduz Qasım Xocalı faciəsindən canını xilas etmək istəyənlərin vahiməsini o qədər canına yığıb ki, bu hadisələrin mahiyyəti onun ruhuna elə bir dərəcədə hopub ki, o, özü də əzab daşıyıcısına çevrilib. Elə ona görə də hadisələrin gedişini tam dolğunluğu ilə verə bilir.

İnamların qırılan anında hardansa, bir ümid işığı gəlirsə, o vaxt insan asanlıqla onu tərk etməkdə olan inamını qaytara bilir. Hadisələrin həmin gərgin məqamında Azərbaycan əsgərlərinin qaçqınlara rast gəlməsi, onların yardımına özlərini çatdırmaları, zənnimizcə yazıçı tərəfindən təsadüfi epizod kimi yazıya gətirilməyib. Yazıçı son nəticədə Qarabağ hadisələrinin taleyüklü həllini Azərbaycan əsgəri ilə bağlayır və İkinci Qarabağ savaşında qələbəni Azərbaycana - Vətənə təmin edən əsgərlər o dəhşətli faciə günündə çıxılmazlığa düçar olanların harayına yetən əsgərlərin övladlarıdır. Bəli, onlar artıq inam işığı kimi görünməkdə idilər: *"Elə bil kimsə var iralidə...*

*- Doğma dildə idi danışıqları. Məryəm yenə də ehtiyatlanıb uşaqlara «sus» işarəsi verdi.*

*- Orada, qaranlıqda bir adam kiməsə deyirdi: - Ataş açma, hələ dayan, yoxlamaq lazımdır, bəlkə, bizim adamlardı. - Məryəm ürəkləndi. - Biz Xocalıdanıq, qardaşlar!*

*Gələnlər yaxınlaşdılar. - Daha kim var? Arxadan gələn var?*

*- Var, onlar çox geridədirlər. Orda bir qadın doğur. Yoldaşım həkimdir, orada qaldı. Bizi göndərdi. Əgər yenə adamlarınız varsa, onlara kömək göndərin.*

*- Hələ sizi aşağı çatdıraq. Uşaqlar soyuqdan donar. Şaxta insanın iliyinə işləyir.*

*- Ay qardaş, bu yazıqların nə ayaqları yer tutur, nə dilləri söz. Siz bu balacaları götürün. Mənim qızımla o oğlan özləri gedə bilər. Mən də bu körpəni alım...*

*Bir xeyli getmişdilər ki, başqa iki adam da yanaşdı onlara. Oğlanlardan biri dedi: - Həsən, siz bu yolla yuxarı qalxın, deyir orda hamilə qadınla bir həkim qalıb. Özünüzü çatdırın. Bu qudurmuş itlər qan-qan deyirlər. Özünüzü yetirin ora. Tələsin, qardaşlar!*

*Balaca qızın sızıltısı kəsmirdi. Ayaqlarının ağrısından canını qoymağa yer tapmırdı. Məryəm onu ovutmağa çalışırdı: - Bax, Nəcibə, Allaha şükür, bizə kömək gəldi. Bir azdan çatacayıq aşağı. Bizi tapmayacaqlar. Ayaqların da yaxşılaşacaq. Yemək də verəcəm sənə, amma ağlama. Eşidərlər, Allah etməmiş, gəlib əsir alarlar bizi. Uzaqlara apararlar. Bir də heç zaman buralara qayıda bilmərik. Ananı da bir daha görməzsən. Ağıllı ol, gözəl balam. Samir, sən bacını kürəyinə götür.*

*- Baş üstə, müəllimə.*

*Nəcibə Məryəmin sözünə güldü: - Bəyəm Samir anamdı məni kürəyinə götürə? Həmişə anam məni kürəyinə götürür.*

*- Az danış, müəllimə ilə söz güləşdirmə. - Nəcibə böyük qardaşının kürəyində olsa da sual verməkdən əl çəkmirdi: - Bəs anam necə oldu, niyə gəlmir?*

*- Ananı indi köməyə gedən əsgərlər gətirəcəklər. Eşitmədin nə dedilər.*

*Kiçik qardaşın iniltisi ürək dağlayırdı: - Samir, ayaqlarım ağrıyır.*

*- Ə, sən də zarıma, yekə kişisən, bəsdi. Bəs deyirdin tüfəng götürüb əsgərlərə qoşulassan. Bax, anam gəlsə, də xala bizdən şikayət edər ki, özümüzü yaxşı aparmadıq. Eləmi, Məryəm müəllimə?*

*- Qardaşın düz deyir, oğlum, döz, lap az qalıb, ağlama, qurbanın olum.*

*Məryəmin öz canının sızıltısı az qala onu dara çəkirdi. Ancaq o, necə də olsa, uşaqlara görk olmalıydı. Canını dişinə sıxmışdı. Pəri altdan-üstdən bərk geyinmişdi. Ana heç olmasa geyim sarıdan qızından arxayın idi».* Ulduz Qasım üçün yazı gərginliyi sadəcə fiziki zəhmət deyil, mənəvi gərginlikdir, daxili mühitinin iztirablarıdır, bir sözlə, ruhunun ağrısıdır. Elə ona görə də, hətta əsərin ilk səhifələrindən başlayaraq saatbasaat, əgər belə demək mümkünsə, anbaan insanların dəyişən əhvalı, iztirabları, ağrı-acıları yazı içində görünür.

U.Qasım sadəcə öz dili ilə hadisələri danışmır, Hadisələri qəhrəmanlarının dili ilə, düşüncəsiylə açmağa çalışır. Dialoqlarda (bəzən daxili monoloqlarda) qəhrəmanların düşdüyü aura, mühit bütün çılpaqlığı ilə görünür. Vəziyyət, situasiya, gərginlik, hətta tarıma çəkilmiş simin qırılmağına qədər belə davam edir.

Bəli, insanın gücü tükənməz deyil. Demək, iztirabların, əzabların elə bir məqamı var ki, orada insanın gücü tükənir, iradəsi qırılır. Hələ ki, biz qəhrəmanlarımızın (həm də yazıçı Ulduz Qasımın) əzablara dözümünün şahidiyik.

Bəli, hələ ki, əzablar davam edir.

***06.09.2022***